Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 79** **QƏRAR** **Bakı şəhəri, 23 fevral 2016-cı il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1362-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 12 noyabr tarixli 676 nömrəli və "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1364-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2015-ci il 12 noyabr tarixli 677 nömrəli fərmanlarının 1.2-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 5, maddə 361; 2002, № 5, maddə 317, № 10, maddə 635; 2006, № 3, maddə 303, № 10, maddə 902; 2010, № 11, maddə 1040) ilə təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası"nın "II. İcra ilə əlaqədar icra məmurlarının fəaliyyətinin yoxlanılması" bölməsinin 4-cü hissəsinə "məhkumlara" sözündən sonra ",azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaya məhkum edilməklə yanaşı, alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş, habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş, narkomaniyadan müalicəyə ehtiyacı olan şəxslərin ixtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicəsi barədə məhkəmə qərarlarının tələblərinin yerinə yetirilməsinə" sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***